*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 3, 2025*
*Səh. 474-479*

https://doi.org/10.62837/2025.3.474

**ƏLİYEV ZAKİR ƏLİSAHİB OĞLU**
*Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti,*
*Muğam sənəti kafedrasının dosenti,*
*Əməkdar artist*
Email: aliyevzakir@gmail.com

# AZƏRBAYCAN MUĞAMLARININ FOLKLOR MUSİQİSİNDƏ ROLU

Muğam sənəti Azərbaycanın professional musiqi mədəniyyətinin şifahi irsinin mühüm qismini təşkil etməklə, xalqın mədəni ənənələrində və tarixində dərin köklərə malikdir. Bu mədəni ənənənin Azərbaycanda köklərinin olması ölkədə onun daşıyıcılarının sayı, eləcə də bəstəkarların, rəssamların, heykəltəraşların və şairlərin tükənməz ilham mənbəyi olan milli mədəniyyətdə mühüm rolu ilə təsdiqlənir. Ümumi-bədii ənənələri təşkil edən Azərbaycan muğamları milli özünüdərk dəyərlərdən biri kimi qavranılır. Həm milli mədəniyyət üçün, həm də bütün bəşəriyyətin mədəniyyəti üçün Azərbaycan muğamının bədii dəyəri, onun yüksək mənalılığı YUNESKO kimi nüfuzlu beynəlxalq təsisat tərəfindən etiraf olunmuş və bəşəriyyətin şifahi və qeyri-maddi irsinin şah əsərlərindən biri elan edilmişdir. Azərbaycan muğamlarının folklor musiqisində rolu çox mühüm və mərkəzidir. Muğam, Azərbaycan mədəniyyətinin ən dəyərli incilərindən biri olmaqla yanaşı, xalq musiqisinin əsasını təşkil edir. Muğam Azərbaycan xalq musiqisinin ən qədim və klassik formalarından olub, xalq mahnıları, rəqs melodiyaları, aşıq musiqisi və digər folklor nümunələri ilə sıx bağlıdır. Xalq musiqisindəki bir çox melodik və ritmik elementlər muğam ənənələrindən qaynaqlanır. Muğamlar əsasən improvizasiyaya əsaslansa da, müəyyən modal quruluşa malikdir. Milli məqamlarımız: Rast, Şur, Segah, Çahargah, Bayatı-Şiraz və s. folklor melodiyalarında da öz əksini tapır. Məsələn, xalq mahnılarında Şur və Bayatı məqamları tez-tez istifadə olunur. Azərbaycan aşıq yaradıcılığında muğam elementləri geniş yer tutur. Aşıq musiqisində muğam üslubunda oxunan nəğmələr muğamla folklorun sintezini nümayiş etdirir. Xalq dastanları ("Koroğlu", "Aşıq Qərib" və s.) muğam janrında ifa olunaraq, bu dastanların musiqili hissələri muğamın təsiri altında formalaşmışdır. Azərbaycan xalq rəqslərinin musiqiləri çox vaxt muğam məqamlarında bəstələnir. Xüsusilə "Cahargah" muğamı rəqs melodiyalarında tez-tez istifadə olunur.

Azərbaycan musiqi folkloru dedikdə, xalqımızın yaratdığı əmək, epik, məişət, qəhrəmanlıq, lirik və satirik mahnılar, rəqs melodiyaları və eləcə də, sintetik aşıq yaradıcılığı, emosional-obrazlı məzmunu ilə fərqlənən klassik muğam sənəti nəzərdə tutulur. Azərbaycan musiqi folklorunun yaranmasında mahir xalq müğənniləri, aşıq və xanəndələr, xalq musiqisi ifaçıları əsas rol oynamışlar. Görkəmli alim Əhməd

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 3, 2025*
*Səh. 474-479*

İsazadə xanəndələrin Azərbaycan musiqi folklorunun inkişafında mühüm rol oynadığını xüsusi qeyd edir: "*Onların Azərbaycan xalq mahnı yaradıcılığının - mərasim, əmək, məişət, lirik, qəhrəmanlıq, yumoristik, satirik və s. müxtəlif nümunələrinin qorunub saxlanılmasında və kütlələr içərisində yayılmasında böyük xidmətləri olmuşdur. Xalq müğənnilərinin bir çoxu el mahnılarını ifa etmək və onları ideya-bədii baxımdan zənginləşdirməklə yanaşı, məişətdə, zavod və fabriklərdə, əkinçilikdə və pambıqçılıqda kommunist əməyinə həsr edilən yeni gözəl mahnılar da yaratdılar. Bütün bu mahnılar, hər şeydən əvvəl, öz ideya-emosional məzmununa və obrazlılığına, şən əhvali-ruhiyyəsinə və gələcəyə nikbin baxışlarına görə fərqlənir. Burada kütlələrin müasir hadisələrə canlı münasibəti, yüksək yaradıcılıq fəallığı öz ifadəsini tapır*" (1, səh. 14)

Milli folklor nümunələrimiz: xalq mahnıları, rəqslər, aşıq musiqisi bütün hallarda milli məqamlarımızın intonasiyaları əsasında qurulmuşdur. Məsələn: "Açan nənə", Əlində sazın qurbanı", "Küsmüşəm səndən ay dilbər", "Çal oyna", Meyvələrdən üç meyvə var" və s. xalq mahnıları, "Azərbaycan", "Brilyant", "Darçını", "Əsgərani" kimi rəqslərimiz "Rast" məqamında qurulmuşdur.

Azərbaycan muğam intonasiyaları əsasında səslənən xalq mahnılarını xanəndə üslubunda oxumaq üçün aşağıdakı üsul və texnikalara əməl etmək lazımdır:

1. Məqamı düzgün seçmək və hiss etmək: Mahnının hansı məqamda (Şur, Rast, Segah, Bayatı-Şiraz, Çahargah və s.) olduğunu müəyyən etmək mütləq şərtdir.

Hər məqamın öz xarakterik xüsusiyyəti olub, xanəndə xalq mahnısını ifa etməzdən əvvəl mahnının hansı muğam intonasiyasına aid olduğunu müəyyən etməlidir.

2. Improvizasiya və bədii ifadə: Muğam üslubunda oxuyarkən improvizasiya vacibdir. İfa olunan mahnı və ya muğamın əsas melodiyasını saxlayaraq, melizmləər (tremolo, forşlaq, qruppetto, mordent) və səs yüksəlişləri tətbiq etməklə improvizələr etmək mümkündür.

3. Səs Texnikası və nəfəs nəzarəti: Diafraqmadan nəfəs almaqla uzun frazaları rahat ifa etmək üçün nəfəsi düzgün bölüşdürmək lazımdır. Tremolo, glissando, vibrato kimi ifaçılıq texnikalarından düzgün istifadə etməklə, ifa olunan xalq mahnıları və muğamların emosional təsirini artırmaq mümkündür. Səsə hərarət vermək üçün boğazı sıxmamaq və təbii axın yaratçaq zəruri şərtdir.

4. Lirik ifadə və emosional duyğu: Xalq mahnılarını muğam üslubunda oxuyarkən sözlərin mənasını və hissini vurğulamaq, duyğu dəyişiklikləri: həzinlik, şənlik, eşq, qəm kimi hisləri muğamın dinamikası ilə uyğunlaşdırmaq mühümdür. Məsələn, "Qaragilə" xalq mahnısında dərin lirizm, "Kəsmə şikəstə"də isə dramatik ifadə tələb olunur.

5. Azərbaycan xanəndəlik ənənələrinə sadiq qalmaqla korifey sənətkarların ifa üslubuna diqqət etmək məqsədəuyğundur. Muğam ifaçılığında Şuşa, Bakı məktəblərinin xüsusiyyətlərini nəzərə almaqla peşəkar ifaya nail olmaq mümkündür.

6. Alətlə uyğunluq: Tar, Kamança və s. Əgər alət müşayiəti varsa, muğam avazları ilə mahnını daha da zənginləşdirmək, ritmik sözlə ifa üsullarından istifadə etmək olar.

"Şur" məqamında bəstələnən folklor nümunələrini misal gətirək: "A daglar", "Alma almaya bənzər", "Gəl, gəl ahu balası", "Güləbatun", "Qarabağın maralı", "Dəli ceyran", "Ahu kimi", "Sarı gəlin", "Səndən mənə yar olmaz" və s. xalq mahnıları, "Atlanma", "Bakı", "Cıdır", Qəhrəmanı", "Üçayaq yallı" kimi milli rəqslərimiz "Şur" məqamının intonasiyaları əsasında səslənir. Məlumdur ki, Şur məqamı Azərbaycan muğam və xalq musiqisində ən geniş yayılmış, lirik və həzin melodiyaların əsasını təşkil edir. Bu məqamda ifa olunan xalq mahnılarını xanəndə üslubunda oxumaq üçün aşağıdakı texnikalar və üsullar vacibdir:

1. Şur məqamının xüsusiyyətlərini anlamaqla muğamın emosional tonunu müəyyən etmək: həzin, lirik, bəzən fəlsəfi dərinlik daşıyır. Muğama xarakterik olan intonasiya xüsusiyyətlərini ifaçılıq prosesində dəqiqləşdirmək.

2. Şur məqamında ifanın əsas prinsipləri: sərbəst improvizasiya və melodik bəzəklərdən istifadə etməklə ifa olunan xalq mahnısının emosionallığını biruzə vermək, mahnının əsas melodiyasına kiçik səs keçidləri əlavə etməklə gözəl və səliqəli bir ifaya nail olmaq mümkündür. İfaçılıq prosesində "Ah, ey, vay" kimi sözlərlə emosional təsiri gücləndirmək olar.

3. Səs texnikası və nəfəs nəzarəti: uzun frazaları rahat oxumaq üçün dərin nəfəs almaqla, səsə emosional rəng vermək üçün vibrato üsulunu tətbiq etmək və təbii səs sürüşmələrilə ifa prosesini canlandırmaq məsləhətdir. Piano (yumşaq) və forte (güclü) keçidlərilə ifanı canlandırmaq,

sözlərin mənasını vurğulamaq, hər mətn sətirinə uyğun emosiya (kədər, həsrət, eşq) ifadə etmək mütləq şərtdir. "Şur" məqamında olan lirik xarakterli xalq mahnılarının interpretasiyası prosesində lirik, həzin, lazım gəldikdə isə pıçıltı ilə oxumaq, səsi emosional, lakin təbii saxlamaq xanəndəlik sənətində xalq mahnılarının ifasında mühüm şərtlərdəndir.

"Şüştər" məqamında bəstələnən xalq mahnılarına "Ay sona", girdim yarın bağçasına", "Aman kəklik əlindən", "Gözəlim sənsən" kimi mahnılar, "Yüz bir", "Uzundərə" və s. milli rəqslərimiz daxildir.

Muğam və xanəndəlik sənəti folklor musiqisinin bir qolu olan aşıq musiqisi ilə də sıx əlaqəlidir. Bu barədə musiqişünas K.Atakişiyeva yazır: "*Aşıq və muğam sənəti arasında tarix boyunca məntiqi, fəlsəfi-psixoloji, milli təfəkkürə əsaslanan ümumi cəhətlər də mövcud olmuşdur. Bu baxımdan hər iki sənətin tarixini araşdıran elmi tədqiqatlarda aşıq və muğam sənətinin öz kökünü qam-şaman mədəniyyətindən götürməsi, hər iki sənətin daşıyıcılarının xalq tərəfindən sayılıb-seçilən şəxsiyyətlər olması kimi tarixi-ictimai cəhətlər, digər tərəfdən aşıq və muğam musiqisinin milli ladlara əsaslanması, milli musiqi alətlərinin müşayiəti, janr, ritm, musiqi dilinin xüsusiyyətləri, ifaçılıq ənənələri arasında olan yaxınlıq və s. kimi ümumi cəhətlər*

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 3, 2025*
*Səh. 474-479*

*mövcuddur. Həmin xüsusiyyətlər aşıq və muğam sənətinin müxtəlif ictimai-siyasi şəraitdə formalaşıb inkişaf etməsindən asılı olmayaraq, eyni mədəni təfəkkürdən qaynaqlanmasından irəli gəlir*". (2, səh.6)

Düşünürük ki, Muğam sənəti aşıq sənətindən fərqli şəraitdə təşəkkül tapsa da, iki sənət arasında olan bağlılıq bütün sahələrdə özünü biruzə verir və folklor musiqisi ilə muğam sənətinin ayrılmazlığını təsdiqləyir. Dahi Üzeyir Hacıbəyli xanəndə və sazəndə sənəti ilə bağlı öz münasibətini belə ifadə etmişdir: «*Peşə və sənət məqamında isə musiqi icrası «ustad»ların işidir; bu ustadlar, qabiliyyət və ləyaqətlərinə görə iki zümrəyə ayrılırlar: biri şəhər və yaxud «məclis» musiqiçiləri ki, bunlara məlum olduğu üzrə, xanəndə və sazanda dəstəsi deyilir*» (3, s.185)

Azərbaycanın ənənəvi musiqi mədəniyyətinin iki əsas sütunu olan aşıq sənəti və muğam sənəti bir-biri ilə sıx bağlıdır. Hər ikisi xalq yaradıcılığının əsasını təşkil edir, lakin ifadə üslub baxımından fərqlənir. Bu iki sənət növü arasında bir sıra oxşar və fərqli cəhətlər mövcuddur. Aşıq musiqi alətinin ifaçısı, özü öz ifasının müşayiətçisidir. Xanəndəni isə xüsusi olaraq sazəndələr müşayiət edir. Aşıq musiqisi daha çox şifahi xalq yaradıcılığına əsaslanaraq, saz aləti ilə müşayiət olunur. Muğam isə klassik ənənəvi musiqi forması olub, tar, kamança, dəf kimi alətlərlə ifa olunur. Bütün aşıq mahnıları muğam intonasiyalarına əsaslanır. Məsələn: Aşıq Ələsgərin "Qurban olam" mahnısı "Bayatı-Şiraz" məqamında olub, muğam ifaçıları tərəfindən də tez-tez ifa olunur. Koroğlu" dastanında "Rast" və "Çahargah" muğamlarının intonasiyalarına daha çox rast gəlmək mümkündür.

Hər iki janrda söz və musiqinin birləşməsi zəruri olub, aşıq məclislərində müxəmməs (beş misralı şeir) oxunarkən muğam üslubunda "avaz" da işlədilə bilər.

Muğam ifalarında "aşıq deyişmələrinə" bənzər melodik keçidlər olur.

Aşıq poeziyası sadə, xalq dilində, mətn əsaslı olub, muğamların sözləri çox vaxt klassik şeirlərdən (Füzuli, Xəyyam, Nizami) götürülür. Eşq, kədər, təbiət, qəhrəmanlıq mövzuları aşıq və muğam sənətində olan ortaq mövzulardır. Aşıq mahnılarında "Səni harda görüm, ey gözəl" kimi sözlər muğamda "Ayrılıq" (Segah) avazında oxuna bilər. Muğamda istifadə olunan "Mən səni axtarıram" kimi ifadələr aşıq deyişmələrində də var. Bəzi muğam ifaçıları aşıq mahnılarını muğam üslubunda interpretasiya edirlər. Aşıq Ələsgər, Aşıq Hüseyn Bozalqanlı bəzən muğam avazlarından istifadə edirlər.

"*Aşıq musiqisi xalqın ürəyidirsə, muğam onun ruhudur və bu iki sənət bir-birini zənginləşdirərək Azərbaycanın musiqi irsini əbədiləşdirir*." (3, 422)

Beləliklə, muğam Azərbaycan folklor musiqisinin əsas dirəklərindən biridir. O, həm klassik, həm də xalq musiqisi ilə qarşılıqlı əlaqədə olub, Azərbaycanın musiqi ənənələrini zənginləşdirir. Muğamın improvizasiya və emosional ifadə gücü, onu Azərbaycan mədəniyyətinin unikal simvollarından birinə çevirir. Xanəndə muğam əsaslı xalq mahnılarını interpretasiya edərkən məqam bilikləri, improvizasiya, emosional ifadə və ənənəvi üslubların mənimsənilməsi əsas rol

oynayır. Bu üsulları mənimsəməklə Azərbaycan muğamının dərin poetik və musiqi dünyasını tam açıb dinləyicilərə çatdırmaq mümkündür.

**İstifadə olunan ədəbiyyat**

1. Ömərov V. Azərbaycançılıq və milli musiqi folkloru. Bakı, Səs qəzeti, 2012.- 18 aprel.- S. 14.
2. Atakişiyeva K. Şifahi ənənəli Azərbaycan professional musiqisi: aşıq və xanəndə yaradıcılığı. Bakı, 2020, 136 s.-s.6
3. Hacıbəyov Ü.Ə. Seçilmiş əsərləri.B.:Yazıçı, 1985,653 s.
4. Azərbaycan folkloru antologiyası III. Göyçə folkloru. B.: AMEA, 2000, 767 s.
5. Azərbaycan xalq musiqisinin antologiyası: 10 cilddə / Azərbaycan muğamları və rəngləri. AMEA Mİİ, IV cild, B.: Azpetrol Neft Şirkəti, 2005, 222 s

**Xülasə**

Təqdim olunan məqalədə muğam sənətinin tarixi inkişaf mərhələlərinə nəzər salınaraq, onun folklor musiqisindəki rolu üzə çıxarılmışdır. İki sənət arasında mövcud əlaqələrin aşkara çıxarılması, eləcə də musiqi repertuarında, ifaçılıq üslubunda baş verən qarşılıqlı təsir və janr transformasiyası kimi məsələlər işıqlandırılmışdır. Problemin həllində tarixi, nəzəri və müqayisəli təhlil metodlarından bəhrələnərək maraqlı yanaşma nümayiş etdirilmişdir. Əldə edilən nəticələr isə hər iki sənətin tədqiqində yeni perspektivlərin açılmasına zəmin yaratmış olur. Tədqiqat nəticəsində məlum oldu ki, muğam Azərbaycan folklor musiqisinin əsas dirəklərindən biridir. O, həm klassik, həm də xalq musiqisi ilə qarşılıqlı əlaqədə olub, Azərbaycanın musiqi ənənələrini zənginləşdirir. Muğamın improvizasiya və emosional ifadə gücü, onu Azərbaycan mədəniyyətinin unikal simvollarından birinə çevirir. Xanəndə muğam əsaslı xalq mahnılarını interpretasiya edərkən məqam bilikləri, improvizasiya, emosional ifadə və ənənəvi üslubların mənimsənilməsi əsas rol oynayır. Bu üsulları mənimsəməklə Azərbaycan muğamının dərin poetik və musiqi dünyasını tam açıb dinləyicilərə çatdırmaq mümkündür.

**Açar sözlər:** muğam, folklor, xalq mahnıları, xanəndə, interpretasiya, musiqi, üslub, mədəniyyət.

**Aliyev Zakir Alisahib oglu**

**The Role of Azerbaijani Mugham in Folk Music**

**Abstract**

This article examines the historical development of mugham art and highlights its role in folk music. It explores the existing connections between these two art forms, as well as the mutual influences and genre transformations evident in musical repertoire and performance styles. Using historical, theoretical, and comparative analysis methods, the study presents an engaging approach to the subject. The findings open new perspectives for the study of both art forms.

The research reveals that mugham is one of the foundational pillars of Azerbaijani folk music. It interacts with both classical and folk music, enriching Azerbaijan's musical traditions. The improvisational power and emotional expressiveness of mugham make it one of the unique symbols of Azerbaijani culture.

When interpreting folk songs based on mugham, a *khananda* (traditional singer) must master modal knowledge (*maqam*), improvisation, emotional expression, and traditional styles. By mastering these techniques, it becomes possible to fully convey the profound poetic and musical world of Azerbaijani mugham to listeners.
**Keywords:** mugham, folklore, folk songs, *khananda*, interpretation, music, style, culture.

**Роль азербайджанских мугамов в фольклорной музыке**
**Резюме**

В представленной статье рассматриваются исторические этапы развития искусства мугама, раскрывается его роль в фольклорной музыке. Освещены вопросы выявления взаимосвязей между двумя видами искусства, а также такие аспекты, как взаимовлияние и жанровая трансформация в музыкальном репертуаре и исполнительском стиле. При решении проблемы использованы исторический, теоретический и сравнительный методы анализа, что позволило продемонстрировать интересный подход. Полученные результаты создают основу для открытия новых перспектив в исследовании обоих видов искусства. В ходе исследования выяснилось, что мугам является одним из основных столпов азербайджанской фольклорной музыки. Он находится во взаимосвязи как с классической, так и с народной музыкой, обогащая музыкальные традиции Азербайджана. Импровизационная сила и эмоциональная выразительность мугама делают его одним из уникальных символов азербайджанской культуры. При интерпретации народных песен на основе мугама ханенде играют ключевую роль знания макамов, импровизация, эмоциональная выразительность и освоение традиционных стилей. Овладение этими методами позволяет полностью раскрыть глубокий поэтический и музыкальный мир азербайджанского мугама и донести его до слушателей.
**Ключевые слова:** мугам, фольклор, народные песни, певец, интерпретация, музыка, стиль, культура.

**Rəyçi:, dosent, sənətşünaslıq üzrə fəlsəfə doktoru: Ellada Hüseynova**